| Xəstəlik sinifi (XBT-10) | L- Dəri və dərialtı toxumanın xəstəlikləri |
|---|---|

| İlkin versiyanın tərtibatçı(İSİM) | Məmmədova L. |
|---|---|

| XBT-10 rubrikası | Xəstəliklər |
|---|---|
| **L43** | Qırmızı yastı dəmrov |

## Müalicə

Bütün müalicə üsullarının alternativ üsulu spontan sağalmanı gözləməkdir. Spontan sağalma vaxtını əvvəlcədən proqnozlaşdırmaq mümkün deyildir. Güclü təsirə malik kortikosteroid preparatları adətən yaraları bir neçə həftə ərzində təmizləyir.

Güclü steroidlər nəzarətsiz  tətbiq edilməməlidi.

Ağzın selikli qişasında müşahidə edilən qırmızı yastı dəmrov çətin müalicə olunur. Kortikosteroidlər, retinoidlər, siklosporin və ya bəzən krioterapiya faydalı ola bilər.

Qırmızı yastı dəmrovun piqmentləşmiş qalıqlarını müalicə etməyin. Onlar müəyyən vaxt ərzində spontan olaraq normal rəngə qayıdırlar.

Əgər, qırmızı yastı dəmrov yayılmışdırsa yerli müalicə üsulları istifadə olunmur. Bu halda Asitretin (Acitretin), Cyclosporin (Ciclosporin), NB-UVB və ya PUVA təyin edilə bilər.

Xəstəlik ən azı 50% xəstələrdə bir neçə ildən sonra residivləşə bilər.

## Ədəbiyyat

**Qırmızı yastı dəmrov**

**Məqalənin son yenilənmə tarixi: 10.02.2021**

**https://ebmg.az/article/content/782**